***Həmin tarixi sənədin ərsəyə gəlməsi, bəlkə də, 2017-ci ilin ən əlamətdar hadisəsi idi. Dövlət başçımız Mehriban Arif qızı Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında sərəncam imzalamışdı. Elə həmin gün – fevralın 21-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilmiş və dövlət başçımız yeni təyin olunmuş Birinci vitse-prezidenti şura üzvlərinə təqdim etmişdi.***




# Muğam sənətimizin Mehriban himayədarı

Əslində, bu, idarəetmənin təkmilləşdirilməsi və dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atılmış adi bir addım idi. Amma Birinci vitse-prezident vəzifəsinə məhz Mehriban xanımın təyin edilməsi ölkənin mədəniyyət xadimləri, musiqi ictimaiyyəti, xüsusən, muğam sənəti ilə bağlı ziyalılar üçün gözlənilən idi. Çünki biz həmin tarixə qədər – 13 il idi ki, Mehriban xanım Əliyevanın misilsiz qayğısı ilə əhatə olunmuşduq. O, Azərbaycan muğamına elə bir ruh, can, yeni həyat vermişdi ki, onu adi sözlərlə ifadə etmək mümkün deyildi.

Mənim yadımdadır, Xalq artisti, dünya şöhrətli kaman ustası Habil Əliyev demişdi ki, Mehriban Əliyeva yaşca bəlkə mənim qızımdan da kiçikdir. Ancaq o, Azərbaycan muğamına yeni can verməklə, biz muğam ifacılarına həqiqətən analıq etmişdir. Mən, çoxsaylı musiqiçiləri olan Bakıxanovlar şəcərəsi adından Habil Əliyevin həmin arqumentini o zaman da alqışlamışdım, indi də alqışlayıram.

Təsadüfi deyil ki, dövlət başçımız Mehriban xanım Əliyevanı Təhlükəsizlik Şurasında təqdim edərkən demişdi: "Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq, sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan, belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur".

Yeri gəlmişkən, mənim evimdə muğamla, musiqi mədəniyyətimizlə bağlı yüzlərlə kitab var. Həmin kitablar arasında 2018-ci ilin yazında işıq üzü görmüş "Mehriban Əliyeva– Azərbaycan mədəniyyyətinin hamisi" adlı nəfis tərtibatlı, çoxsaylı fotoşəkillərlə zəngin kitab-albom da var. Diqqətəlayiq haldır ki, bu kitab fransız dilinə də tərcümə edilmişdir. Bu barədə kitabda oxuyuruq: "Kitabı fransız dilində hazırlamaqda məqsədimiz Azərbaycanın və Azərbaycan qadınının siması olan xanım Əliyevanın çoxşaxəli fəaliyyətini 250 milyondan artıq fransızdilli insana çatdırmaqdır". Doğrudan da, ömrü boyu Vətənimizin mədəniyyətini bütün dünyada təbliğ edən bir adamın həyat və fəaliyyəti barədə məlumatı ümumdünya ictimaiyyətinə çatdırmaq çox vacib vəzifədir və nə yaxşı ki bu addım vaxtında atılmışdır.

Həmin kitabın "Musiqi layihələri" adlı dördüncü fəslində qədim tarixə malik musiqi mədəniyyətimizin inkişafı sahəsində görülən işlərdən danışılır. Müəlliflər məxsusi olaraq vurğulayırlar ki, xalqımızın mədəni ənənələri və tarixində dərin köklərə malik muğam sənətinin inkişafı və təbliği, milli musiqi irsimiz hifz edilməsi, dünya incilərinin Azərbaycanda tanıdılması Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tutur.

Qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev Fondu daim Azərbaycan xalqının düşüncə sistemində xüsusi yer tutan ali dəyərlərə tapınaraq cəmiyyətin mənəvi cəhətdən saflaşmasına və yüksəlişinə, milli mədəniyyətin yad təsirlərdən qorunmasına yönəldilmiş xoşməramlı missiyanın daşıyıcısıdır. Elə həmin fondun rəhbərliyinə də Mehriban xanımın təyin olunması ən uğurlu seçim olmuşdur. Biz– ölkənin mədəniyyət xadimləri öz himayədarımıza və qayğıkeşimizə yeni-yeni uğurlar və cansağlığı arzulayırıq.

**Tofiq BAKIXANOV,**
**Xalq artisti, professor,**
**"Şərəf" ordenli bəstəkar**